# Qars aşıqlarının musiqi repertuarları

**Türk mədəniyyətinin və incəsənətinin önəmli bir sahəsini aşıq sənəti təşkil edir. Əskidən bəri Türk aşıq musiqisi Anadolu musiqi mədəniyyətində özünəməxsus bir mövqe tutmuşdur.**

Çalıb-oxumağı özündə qovuşdurub yaşadan və şərəfli tarixi keçmişə sahib olan saz-söz sənəti Türk dünyasının bəşəriyyət aləminə bəxş etdiyi ən qədim və layiqli bir töhfəsidir. Türklərin var olduğu ilk çağlarda geniş xalq kütləsinin təmsilçiləri halına gələn: həkimlik, sehrbazlıq işlərini bilən, ərşdən - gürşdən xəbər gətirən, insanlara dəyərli məsləhətlər, öyüdlər verən, onlara doğru yol göstərən, çalıb - çağırmağı bacaran, musiqiçi kimi fəaliyyət göstərən sənətkarlara Altay türkləri kam, türkmənlər baxşı, qırğızlar manascı, tonquzlar şaman, yakutlar oyun, oğuz türkləri ozan demişlər.

"Alplar dövrünü tərənnüm edən asıl sanatkarlar işte bu Ozanlardı və ta Hunlardan beri ozanları kopuzçuları olmayan hiçbir Türk ordusu yoktu".

Təsadüfi deyildir ki, Türkmənistanda iki telli dütar alətində çalıb söyləyən şəxslərə yerli xalq əskidən bəri bəxşi (baxşı) deməkdədirlər. Qazaxıstanda domra alətində çalıb söyləyən şəxslər isə akın adı ilə xalq arasında tanınmaqdadır. Azərbaycanda və İran türkləri arasında saz-söz sənətini bayramlarda, el şənliklərində tərənnüm edən sənətkarlara, bu məmləkətlərin insanları bir vaxtlar yanşaq, sonralar isə aşıq deyə müraciət etmişlər.

Bütün bunlarla yanaşı Anadolu türklərinin məskunlaşdığı Türkiyə ərazisindəki ayrı-ayrı bölgələrdə isə günümüzdə belə saz-söz ustalarının özlərinə ozan və yaxud da varsaq, eləcə də abdal, bəzən də aşıq demələri onların bu şərəfli adlara sadiq qalmasının göstərgəsi kimi dəyərləndirilməlidir.

Bu baxımdan Sivas ərazisində fəaliyyət göstərən sənətkarlar özlərinə aşıq, Ərzurumun saz - söz ustadları özlərinə ozan, Adana bölgəsində sazla çalıb - çağıran sənətkarlar isə özlərinə varsaq, Orta Anadolu bölgəsində (Kırşəhər başda olmaqla Əskişəhər, Kırıkqala, Niqdə, Yozqat və s.) saz çalıb söyləyən musiqiçi timsallı aşıqlar özlərinə abdal (Məhərrəm Ərtaş, Nəşət Ərtaş) demələri diqqətimizi çəkmişdir.

Azərbaycanda və İranda olduğu kimi, Türkiyə coğrafiyasının fərqli bölgələrində də fəaliyyət göstərən sazlı - sözlü nümayəndələr, ayrı-ayrı aşıq məktəbləri adı altında çalıb-çağırmaqdadırlar.

Hər məktəb də mənsub olduğu diyarın məşhur aşıqlarının sənətini, sözlərini, musiqilərini ilk olaraq öz ifalarında yaşatmaqla təmsil etməkdədirlər. Uzun illərin müşahidələrinə dayanaraq fikrimizi qısaca əsaslandırmış olsaq belə bir qənaətə gəlirik ki, Göyçə aşıq məktəbi əsasən Aşıq Alının, Aşıq Ələsgərin sözlərini ifa etdikləri kimi, Kəlbəcər aşıq məktəbinin nümayəndələri daha çox şair Qurbanın, Dədə Şəmşirin, son illərdə şair Bəhmən Vətən oğlunun, şair Əli Qurbanovun, şair Sücaətin, aşıq Allahverdi Qəmkeşin, Dəmirçi Abbasın, Gədəbəy aşıq məktəbinin nümayəndələri də şair Misginli Vəlinin şeirlərini toy - düyünlərdə, müxtəlif tədbirlərdə çalıb-söyləməkdə, Tovuz aşıqları isə son əlli il olar ki, daha çox Azaflı Mikayılın sözlərinə öz repertuarlarında daha geniş yer ayırmaqdadırlar.

Bununla yanaşı Borçalı aşıq məktəbinin nümayəndələri bu bölgənin məşhur yetirmələri olan şair Ağacanın, aşıq Xındı Məmmədin, Faxralı, şair Nəbinin şeirlərinə müraciət etmiş, bu gün də onların yaradıcılıq irsinə sadiq qalmada və bu qaynaqdan bəhrələnməkdədirlər. Abdal - Gülablı aşıq məktəbinin (Qarabağ aşıq mühiti) sənətkarları isə daha çox Aşıq Valehin, eləcə də Şirvan elinin sazlı - sözlü ifaçıları da bu mahalın ustadı qəbul edilən Aşıq Mirzə Bilalın yaradıcılığına önəm verməkdədirlər.

Urmiya, Sulduz, Xoy, Səlmas aşıqları, Dol mahalının azman sənətkarları kimi qəbul olunan Dollu Abuzərin, Dollu Mustafanın, Balovlu Misginin, son illərdə isə şair Məhəmmədəli Purazərin sözlərinə və Dədə Katib adı ilə Urum elindən çox-çox uzaqlarda belə məşhur olmuş Əbdülrəhman Təyyarın yaradıcılığına daha çox yer ayırmaqdadırlar. O cümlədən Savə - Qum aşıq məktəbinin sənətkarları da öz repertuarlarında xüsusi olaraq bu diyarın ustad şairi olmuş Tilimxanın şeirlərini çeşidli mərasimlərdə, bayramlarda, yerli xalqın toy-düyünlərində çalıb-oxumaqdadırlar.

Qaradağ - Təbriz aşıq məktəbinin sazlı - sözlü ustaları da qədimdən bəri daha çox Qurbaninin, Aşıq Abbas Tufarqanlının, Xəstə Qasımın poetik yaradıcılıq irsindən bəhrələnmiş, keçən əsrin əllinci illərindən isə məşhur Aşıq Hüseyn Cavanın şeirlərini hər məclisdə çalıb söyləməkdədirlər.

Yuxarıda qeyd etdiyimiz ənənə türk aşıqlarına da xasdır. Məsələn, varsaq adı ilə Türkiyədə fəaliyyət göstərən Adana aşıq məktəbinin sazlı - sözlü ifaçıları əslən türkmən olan iki böyük şair - aşığın, xüsusilə Qaracaoğlanın və Dadaloğlunun sözlərinə, Çıldır - Qars aşıq məktəbinin nümayəndələri də əsasən Suxaralı Aşıq Şenliyin, Ərzurum ozanları da bu diyarın məşhur saz - söz ustadı Narmanlı Aşıq Sümmaninin poetik irsinə müraciət etməkdədirlər.

Azərbaycan, İran və Anadolu aşıq məktəbləri arasında Arquvan aşıqları özünəməxsusluğu ilə diqqət çəkməkdədir. Bu məktəbin sənətkarlarının ifaçılığını digər adları keçən aşıq məktəblərinin ifaçılıqları ilə müqayisə etdikdə məlum olur ki, onların dərdi-qəmi, eləcə də sevinci, nəşəsi və şənliyi yalnız qəm üstə köklənmişdir. Bu sənətkarlar hansı səbəbdənsə kədəri, şənliyi və qəhrəmanlığı ifadə edən əhval - ruhiyyəni yalnız qəm üstə yoğrulmuş havalar ilə, yəni, qəmi - qəm üstə eyni zamanda sevinci qəm üstə çalıb-oxumaqda, ifa etməkdədirlər. Bir sözlə, onların repertuarında qəmlə sevinc ovqatı ifaçılıq prosesində bir məcrada qovuşmaqda, bir ahəngdə səslənməkdədir.

Bir məsələni də xüsusi olaraq vurğulamaq yerinə düşərdi. Məlumdur ki, Azərbaycan və İran türklərinin aşıqlarının repertuarı musiqi baxımından olduqca zəngindir. Fərqli bölgələrdə fəaliyyət göstərən sənətkarlar saz havalarının sayının 72 olduğunu hər zaman qeyd etmişlər. Ayrı-ayrı aşıq məktəblərinin sazlı - sözlü nümayəndələrinin bir çoxunun fikrinə görə klassik saz havaları yer üzündəki millətlərin sayına görə 72 olmuşdur. Belə anlaşılır ki, hər bir saz havası rəmzi olaraq müəyyən bir milləti təmsil etməkdədir.

Sulduz (İran) aşıq məktəbinin sənətkarı, əslən Qarapapaq türkü olan Məhəmmədəli Mahmudinin fikrinə görə qədim dövrlərdə saz havalarının sayı ilin günlərinin sayı ilə (365-365) mütənasib imiş. Bu havaların ifaçıları və biliciləri dünyasını dəyişdikcə musiqi inciləri də unudulmağa, tədricən repertuardan silinməyə başladı.

Qəzvin (İran) aşıq məktəbinin ustadı Mahmud Abipurun subyektiv fikrinə görə klassik aşıq havalarının sayı qədim dövrlərdə müqəddəs imamlarımızın sayı ilə eyni (12) olmuşdur.

Bizim apardığımız araşdırmalar prosesində bu unikal saz havalarının adlarını ayrı - ayrı vaxtlarda bir çox aşıqlarla ardıcıl görüşlərimiz sırasında onların öz dilindən qeydə almağa müvəffəq ola bildik. Anlaşıldı ki, hər iki məmləkətdə fəaliyyət göstərən aşıqların repertuarında mövcud olan saz havalarının adları say baxımından 1270-dir. Onu da qeyd etməliyik ki, havaların adlarının 1270 olması klassik aşıq melodiyalarının sayının da o qədər olması anlamına gəlmir.

Çünki, araşdırmalarımız zamanı bir çox aşıqların ifaçılığında eyni bir havanın bir neçə fərqli adlarla ifa olunduğunu və bəzi bəstəkar təbli aşıqların son illərdə bir çox yeni havacatlar icad etməsinin şahidi olduq. Konkret bir misalla fikrimizi əsaslandırmaq istərdim. Ənənəvi aşıq musiqisinin başı hesab olunan, "Şah Xətai divani" havasına digər aşıqlar "Baş divani", Qars aşıqları isə "Mərəkə divani" kimi üçüncü bir adla tanımaqdadırlar.

Göründüyü kimi, eyni bir musiqinin üç adı mövcuddur. Ustadlarımız da zaman-zaman yeni aşıq havaları bəstələməklə onların sayını artırmışlar. Bu baxımdan Azərbaycan sənətkarlarından Dədə Şəmşirin "Şəmşiri", Aşıq Avdı Qaymaqlının "İncəgülü", Aşıq Hüseyn Saraclının "Bağdad dübeyt", Aşıq Cəlal Qəhrəmanovun "Cəlal oğlu", Aşıq Mikayıl Azaflının (13 hava) "Azaflı himni", "Azaflı dübeyt", "Azaflı dağlar", "Azaflı gözəlləməsi", "Azaflı bəhri", "Azaflı sənəti", "Azaflı müxəmməs", "Azaflı dünyası", "Azaflı gülü", "Azaflı gəraylı" , "Mikayılı" , "Məzahiri", Aşıq Aydın Çoban oğlunun "Səyyadı", Aşıq Gültəkin Əkbərovanın (Qəmbər qızı) "Gültəkini", Aşıq İsfəndiyar Rüstəmovun "İsfəndiyar gözəlləməsi", Sazbənd Qəzənfərin "Sazbəndi" havalarını misal çəkə bilərik. İran ölkəsində fəaliyyət göstərən bir çox aşıqlar da musiqi bəstəçiliyi sayəsində öz istedadlarını uğurla göstərmişlər.

Bu qəbildən olan havaların adlarını və müəlliflərini də örnək vermək yerinə düşər. Məsələn, Aşıq Əlixan (Tehran) "Əlixan gəraylısı", Aşıq Həsən İsgəndəri (Təbriz) "Misri gülü", "Məcnun dərdi", Aşıq Ayət Qəmbəri (Təbriz) "Ayəti", Çəngiz Mehdipur (Təbriz) "El bağçası", "Nəbati gəraylı", Balabançı Əhməd Abdullahı (Təbriz) "Əhməd qəmi", "Əhməd gözəlləməsi", Aşıq Cəfər Xakpur (Təbriz) "Xakpur çiçəyi", Aşıq Abbas Məhəmmədi Qaradağı (Təbriz) "Abbas gözəlləməsi", Aşıq Əvəz İbadpur (Təbriz) "Qaradağ çiçəyi", saz müəllimi Murad Ağayi (Muğan) "Araz", Aşıq İltifat Davudbəyi (Xurrəmdərə) "Salam Zəncan", Aşıq Səttar Xudai (Zəncan) "Yalqızlı Koroğlu" havalarını yaratmışlar. Həşgirdli Aşıq Fərəc Muradinin yaratdığı 5 saz havasının adları belədir: "Əfşar yaylağı", "Qar çiçəyi", "Məryəmi gəraylı", "Diyarbəkiri", "Səlbinazı". Bununla belə Həşgirdli Aşıq Fərəc Muradinin ustadı Aşıq Həsən Abbasian "Əfşar gözəlləməsi" havasını yaratmışdır. Bu havaya "Həsən gözəlləməsi" də deyilir.

Onu da xatırlatmaq yerinə dü-

şər ki, unudulmaqda olan elə havalar vardır ki, digər aşıqların repertuarında yer almamaqdadır. Məsələn, Mərənd saz-söz məktəbinin ustadı Aşıq Həbib Gözəlzadənin repertuarında təsadüf etdiyimiz "Şütürü"8 adlı saz havasına təəssüflər olsun ki, digər aşıqların ifaçılığında rast gələ bilmədik.

Türk aşıqlarının fərqli simpoziumlarda, radio və televiziyada olan çeşidli proqramlardakı çıxışlarını izlədiyimizdə, ifa olunan saz musiqilərinin adlarının anonim ifa edilməsi hər zaman diqqətimizi çəkirdi. Bir çox Türk aşıqları (Ərzurum, Adana aşıqları) ilə olan görüşlərimiz sırasında, bu məsələyə aydınlıq gətirmək üçün onların repertuarında qərar alan saz havalarının adlarını öyrənməyə çalışsam da bu səyimiz uğursuz qaldı. Bəlli oldu ki, (ustad aşıqlar istisna olmaqla) saz-söz sənətində fəaliyyət göstərən gənc nəslin nümayəndələri əsasən ifa etdikləri aşıq musiqilərinin adlarını dəqiq bilmirlər. Anlaşıldı ki, onlar öz ustadlarından bu musiqilərin adlarını öyrənməyə hansı səbəbdənsə az maraq göstərmişlər.

Doğrudur, aşıqların ədəbi irsini tədqiq edən bir çox alimlər vaxtilə Türkiyədə fəaliyyət göstərən ustad sənətkarlarla görüşlər nəticəsində onların həyatına, poetik yaradıcılığına aid bir çox kitablar, monoqrafiyalar nəşr etdirmişlər. Bu baxımdan dosent Doktor Dülavər Düzgün tərəfindən Atatürk Unversitetinin dəstəyi ilə işıq üzü görmüş "Aşıq Yaşar Reyhani" və "Mövlud İhsani", "Aşıq Mustafa Ruhani" adlı kitablarını, eləcə də Əli Qafqasyalının "Aşıq Murad Çobanoğlu" isimli monoqrafiyasını xüsusilə qeyd etmək lazımdır.

Bu qəbildən olan bir çox kitablar arasında bəzilərini vərəqlədikcə məndə təəssüf hissi oyanırdı ki, kaş nə olaydı, bu saz-söz ustadlarının vokal və instrumental ifaçılıq, sənətkarlıq məsələlərinə, musiqi repertuarına, sazın pərdə düzümünə və ənənəvi kök xüsusiyyətlərinə aid ayrıca bir bölməyə rast gələ biləydim.

Qeyd etmək lazımdır ki, ədəbiyyatşünas alimlər, adı keçən kitablarda aşıqların yalnız şairlik tərəfini hədəf alaraq, öz tədqiqatlarını bu yöndə aparmışlar. Məni təəssüfləndirən bir məsələ o idi ki, ədəbi sahənin tədqiqatçıları aşıqlarla görüşə gedərkən, etnomusiqişünaslıqla məşğul olan mütəxəssisləri özləri ilə birgə aparmadıqları üçün, onların necə bir bəstəkar, ifaçı o cümlədən nə cür bir sənətkar olması kimi önəmli problemlərin həllinə aydınlıq gətirə bilməmişlər.

Bir faktı da oxucularımızın nəzərinə çatdırmaq istərdim. Türk aşıq məktəbinin son dövrlərdəki ən önəmli simaları - ustadları sırasında yer alan Aşıq Yaşar Reyhani dünyasını dəyişdikdən bir müddət sonra, Ərzurum qəzetində belə bir yazı məni məyus etdi. Orada yazılırdı: "Dövlət tərəfindən Yaşar Reyhani haqqında film çəkilməsi nəzərdə tutulub". Öz - özümə dedim: "Kaş sağlığında bu ustadın çalıb-çağırması, musiqi repertuarı geniş bir şəkildə lentə alınaydı və onun ifaçılığı gələcək nəsillərə əmanət saxlanılaydı".

Aşıq Mikayıl Azaflının Türkiyədəki tədqiqatçısı, ədəbiyyatşünas alim Əli Qafqasyalı 2006-cı il may günlərinin birində Aşıq Yaşar Reyhaninin SD halında olan bir ifasını, nota yazmaq üçün mənə təqdim etdi. Nəhayət, ustadın bir neçə ifasını dinlədikdən sonra münasib bildiyim bir bəstəsini notaya aldım. Lakin SD-də olan ifada havanın adı elan edilmədiyi üçün mən məcbur olub həmin musiqiyə "Ərzurum gözəlləməsi" adını verdim.

Təəssüflə qeyd etməliyəm ki, sağlığında bu ustad sənətkarla üzbəüz görüşmək şərəfi mənə nəsib olsaydı, ona Anadolu saz - söz sənəti barədə verdiyim suallara aldığım cavablar əsasında Yaşar Reyhaninin musiqiçi - bəstəçi, ifaçılıq, sənətkarlıq məziyyətlərinə dair xüsusi bir tədqiqat əsəri ortaya qoya bilərdim deyə düşünürəm.

Bir məsələni də qeyd etmək istərdim. Məlumdur ki, Anadolu aşıqları özündə qəhrəmanlıq, igidlik tərənnüm edən, döyüşgənlik, cəngavərlik ruhunu yaşadan bu qəbildən olan havalara ümumi ifadə kimi "Qoçaqlama" deməkdədirlər. Günlərin birində Türk televiziya kanalında Aşıq Yenər Yılmaz oğlunun və mərhum Murad Çoban oğlunun "Qoçaqlama" adlı qəhrəmani ruhlu saz havasını ifa etməsi diqqətimi çəkdi. Bu musiqini dinlədikdən sonra aydın oldu ki, ifa olunan melodiya Azərbaycan və İran aşıqlarının repertuarında "Cəngi Koroğlu" adı ilə tanınmaqdadır.

1988-ci ildə tədqiqat məqsədi ilə Qarsda olduğum zaman bir çox aşıqlarla görüşmək şərəfi mənə nəsib oldu. Xüsusən Aşıq Şenliyin məzarını Mikayıl Azaflı sənətinin yadigar övladı, hal-hazırda "Aşıq Pəri" məclisinin başqanı Gülarə Azaflı və Tovuzlu Aşıq İlhamla birgə Çıldır qəbirstanlığında ziyarət etdik. Bu tarixi ziyarətdən sonra, onun ocağına pənah aparmağımı xoş bir xatirə kimi heç vaxt unuda bilmirəm. Bu ziyarət əsnasında Aşıq Şenlik haqda olan kitabı ustadın nəvəsi mənə hədiyyə etdi.

Bir neçə gündən sonra Qars aşıqlarının başçısı Günay Yıldızla, o cümlədən atası, ustad aşıq Murad Qaraxanlı ilə üzbəüz görüşüm zamanı, onun ustadnamə ruhlu müdrik şeirlərini Türk şivəsi ilə öz ağzından dinləmək şərəfinə nail olduğum üçün özümü bəxtəvər sanırdım.

Bu görüş əsasında Aşıq Murad Qaraxanlıya Azərbaycandan gətirmiş olduğum Dədə Şəmşirin "Öyüdlər" kitabından bir neçə divanilərini oxuduqdan sonra ustada hədiyyə etdim və onu da bildirdim ki, Dədə Şəmşir də sizin qəbul edəcəyiniz azman aşıqlardan olub. Kitaba baxıb kiril alfabesi ilə olduğunu bildikdə mənə dedi: "Bu kitabı oxuya bilmərəm". Cavabında dedim: "Ay ustad, kiril alfabesini bilən bir kəs tapıb oxutdurarsan ".

Qarsda olduğum müddətdə mərhum aşıq Səbri Şimşəkoğlunun ifasında lentə alınmış 12 ədəd maqnitafon kasetini satış mağazasından aldım. Məqsədim Qars aşıqlarının ifa etdiyi havaların adını təsbit etmək, bu musiqiləri nota yazmaq idi. Hələlik bu illər ərzində arzumun yalnız ikisini gerçəkləşdirməyə nail olmuşam. Onlardan biri Aşıq Şenliyin bəstələdiyi "Şenlik divani" və digəri də "Şenlik gözəlləməsi" adlı saz havaları idi.

Türkiyədə çalışdığım illərdə bir çox aşıqların (Məhzuni Şərif, Murad Çoban oğlu, Nəşət Ərtaş, Nuri Çırağı, Fuad Çərkəz oğlu) televiziya proqramlarında çıxışlarını hər zaman seyr edirdim. Ədəbiyyatşünas alimlər Aşıq Veysəldən sonra Murad Çoban oğlunun və Nəşət Ərtaşın Türkiyədə daha çox tanındığını, məşhur olduqlarını daima mənə söyləyərdilər.

Proqramların birində Murad Çoban oğlunun atası Aşıq Gülüstanın və Nəşət Ərtaşın atası Məhərrəm Ərtaşın lent yazılarını ilk dəfə dinlədiyim zaman Türk aşıqlıq gələnəyinin kamil ustadlarının sənətkarlığına, ifalarına və qüdrətli səs imkanlarına heyrət etdim. Yenə də özümü qınadım: "Kaş bu ustadlar sağ olaydı. Məni narahat edən suallara onların ustadanə fikirləri ilə daha mükəmməl cavab tapmış olardım ".

Qars - Qavqaz Konservatoriyasının tələbəsi Nurən Yıldız günlərin birində mənə zəng edib Qars aşıqları barədə bəzi bilgilər almaq istəyində olduğunu bildirdi. Cavabında ona məsləhət gördüm ki, hal - hazırda Qarsda sazı - sözü ilə fəaliyyət göstərən bir çox aşıqlar mövcud olmaqdadır. Mümkün olsa onların çalıb söyləmələrini video-kameraya çəkdir və musiqi repertuarını öyrənməyə çalış.

Bu məqsədlə Nurən xanım Qars yörəsinin bir neçə aşıqları (Aşıq Orxan, Aşıq Ənsar Şahbaz oğlu, Aşıq Bilal Əsalı) ilə görüşüb ona ünvanladığım suallar əsasında fərqli cavablar alıb lentin yaddaşına köçürməklə yanaşı, Qars aşıq məktəbinin ustadı sayılan Şərəf Taşlıovanın repertuarında yer alan aşıq havalarının adları olan siyahı ilə birgə bizə göndərdi. Siyahıda olan havalarla SD-dəki havaların adlarını təhlil edib fərqli və eyni olanları təsbit etdik.

Azərbaycan və Qars aşıqlarının repertuarında təsbit etdiyimiz ortaq aşıq havalarının adları belədir. "Təcnis", "Cığalı təcnis", "Göyçə gözəlləməsi", "Kərəm gözəlləməsi - Əhmədi Kərəm", "Meydan divanisi - Osmanlı divanisi", "Yanıq Kərəm", "Quba Kərəm - Hicranı Kərəm", "Mərəkə divanisi - Baş divani", "Şərəbanı", "Sultanı", "Hüseyni", "Qaraçı", "Mina gəraylı", "Naxçıvanı", "Bəhmanı", "Azaflı dübeyt", "İrəvan çuxuru - Çoxuroba", "Mənsuri", "Cəngi Koroğlu", "Bülbül havası - Dübeyt", "Bayatı", "Uca dağlar", "Sarı tel", "Süsənbəri", "Bayramı", "Dastanı", "İbrahimi", "Dilqəm şikəstə", "Badamı şikəstə" və s.

Qars aşıqlarının özünəməxsus musiqi repertuarını ifadə edən siyahıdakı havaların adları diqqətimizi çəkməkdədir. Məlum oldu ki, 135 adda aşıq havası Qars aşıqlarının repertuarını bəzəməkdədir. Aşıq tədqiqatçılarımızın marağına səbəb ola biləcəyini nəzərə alıb, unudulmaqda olan bu havaların adlarını mətbuat vasitəsi ilə qədirbilən oxucularımızın diqqətinə çatdırmağı özümüzə mənəvi borc hesab edirik.

1. Gövhəri
2. Qaçaq Nəbi
3. Koroğlu
4. Qoçaqlama Koroğlu
5. Cırıtlama Koroğlu-Gizir oğlu Mustafa bəy
6. Yürük Koroğlu
7. Türkməni
8. Yürük Türkməni
9. Yerli yanığı
10. Keşişoğlu
11. Avaran Keşişoğlu
12. Düş Keşişoğlu
13. Cavan öldürən
14. Atüstü
15. Qarabağı
16. Qəribi
17. Üçqollu
18. Hicranı
19. Səyyahı
20. Tatyan
21. Kağızmanlı Sezai
22. Türkmən üç qollu
23. Atlı qaydası
24. Çiçəklər (Kağızmanlı Hıfzı)
25. Durnalar (Ürfani xoca)
26. Düyün Havası
27. Ərzurum ağzı
28. Ərzurum havası
29. Əzik hava
30. Əşrəfi
31. Ağlatma
32. Gülzar
33. Gəlin başı bəzəmə
34. Bayatı-Kürdü
35. Kağızman bozuğu
36. Gəncə havası
37. Hələphavası
38. Maya
39. Sarı yaylıq
40. Dəh deyin qızlar
41. Bala Məmməd
42. Şikəstə
43. Yedəkli şikəstə
44. Yetim şikəstə
45. Əcəm şikəstə
46. İran şikəstə
47. Osmanlı Bozuğu
48. Çobankərə
49. Aşıroğlu
50. Keçəçi oğlu
51. Döşqaya
52. Kürdü gəraylı
53. Mirzəyi Kamil
54. Bəy üsulu
55. Dərbədər
56. Yeddiyollar ayrımı
57. Gürcüstan qəzəli
58. Qiyqac

59. Səfil bayquş (Kağızmanlı Hifzi)
60. Xan Araz
61. Əfşarı
62. Kürd Əfşarı
63. Bağlar altı
64. Kağızman bağları
65. Əmrah havası
66. Qayabaşı
67. Borçalı yanğını
68. Borçalı Zarıncı
69. İrəvan Zarıncı
70. Qələndəri
71. Öyütləmə
72. Türkistanı
73. Gülə bəyi
74. Müxəmməs
75. Sicilləmə müxəmməs
76. Ceyran
77. Lalam
78. Mərdanoğlu
79. Çəpər çuxuru
80. Saat çuxuru
81. Mirzə Paşa
82. Gülgəzi
83. Leyli-Leyli divanisi
84. Horavelləmə
85. Orannama
86. Mürid havası
87. Üç telli durnam
88. Yaycı
89. Salatınlar
90. Sevərək
91. Göl kənarı
92. Səmahı
93. Gülə bəyi
94. Məşdi Rüstəm
95. Oy qızlar
96. Xoş damaq
97. Yeddəli Kərəm
98. Kəsik Kərəm
99. Zəncirli Kərəm
100. Qars divanisi
101. Yerli divani
102. Xəstə Həsən divanisi
103. Yürük divanisi
104. Qazeli divanisi
105. Müstəzad divanisi
106. Rəis oğlu divanisi
107. Bektaşi divanisi
108. Əsmə Sultan divanisi
109. Şəhnazi divani
110. Səmai divani
111. Borçalı divani
112. Ərzurum divanisi
113. Kağızman divanisi
114. Çıldır divanisi -Aşıq Şenlik
115. Sezai (Kağızmanlı) divanisi
116. Tərəkəmə divanisi
117. Türkmən divanisi
118. Dodak dəyməz divanisi
119. Sultanı divanisi
120. Gürcüstan divanisi
121. Ədalı
122. Yedəkli cinas
123. Bardız sallaması
124. Çuxuroba sallaması
125. Çıldır gözəlləməsi
126. Xəstə Həsən gözəlləməsi
127. Şörəgəl gözəlləməsi
128. Yürük gözəlləməsi
129. Yürük Göyçə gözəlləmə
130. Düz gözəlləmə
131. Axıska gözəlləməsi
132. Ardahan gözəlləməsi
133. İqdır gözəlləməsi
134. Qoca nənə gözəlləməsi
135. Gürcüstan gözəlləməsi

Siyahıda yer alan 135 havanın adına nəzər yetirdikdə öncə qeyd etdiyimiz fikrə bir daha dönmək istərdik. Yəqin ki, bu havaların adlarının sayı hələ musiqilərin sayını ispatlamır. Ola bilsin ki, eyni bir musiqi bir neçə fərqli adlar altında Qars aşıqlarının təbirində yer almaqda və ifa olunmaqdadır.

**Yekun olaraq qeyd etməliyik ki, Qars aşıqlarına məxsus klassik saz havalarının musiqişünaslar tərəfindən nota alınması, bu klassiq musiqilərin unudulmasının qarşısını almaq yolunda mühüm xidmət olardı.**

**İlqar İMAMVERDİYEV,**
**sənətşünaslıq doktoru, professor**

## Ədəbiyyat

1. Hacıbəyli Ü. Seçilmiş əsərləri. Bakı - 1985.
2. Bədəlbəyli Ə. Musiqi lüğəti. Bakı, "Elm" - 1969.
3. Əkbər C. Yaşadar səni. Gəncə - 1997.
4. Qurbanov B. Musiqinin bədii-estetik məsələləri. Bakı. "Ağrı dağ" nəşriyyatı - 2000.
5. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı. "Yazıçı" nəşriyyatı - 1984.
6. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı. "Səda" nəşriyyatı - 2004.
7. İmamverdiyev İ. Azərbaycanın 20 saz havası. I c. Bakı. "Şirvannəşr" - 2005.
8. İmamverdiyev İ. Azərbaycanın 20 saz havası. II c. Bakı. "Şirvannəşr" - 2005.
9. İmamverdiyev İ. Azərbaycanın 20 saz havası. III c. Bakı. "Şirvannəşr" - 2006.
10. İmamverdiyev İ. Azərbaycanın 40 saz havası. IV c. Bakı. "Şirvannəşr" -2006.
11. İmamverdiyev. İ. Azərbaycan və İran türklərinin aşıq ifaçılığı sənətinin qarşılıqlı əlaqələri. Bakı. "Nafta-Pres" - 2008.
12. İmamverdiyev. İ. Aşıq Mikayıl Azaflının Saz Havaları. Bakı. "Nafta-Pres" - 2008.
13. İmamverdiyev İ., Cəmil oğlu Z. Miskin Abdal Ocağının El Sənətkarları. Bakı. "Kövsər" - 2010.
14. İmamverdiyev. İ., Qurbanov B., Qasımlı M., Rəhimov A. Şirvan Aşıqlarının saz havaları. Bakı. "Ozan" -2011.